## İşgüzar etika

XX əsrin sonlarına doğru Qərb ölkələrində işgüzar dairələrin, ayrı-ayrı təşkilatların fəaliyyətində sosial məsuliyyətin artırılması təmayülü güclənməyə başlayır, bununla belə, işçilər arasında etik dəyərlərə münasibət zəifləyir. Ona görə də bu problemin aradan qaldırılması zərurəti yaranır, «biznes etikası» və ya «işgüzar etika» anlayışı aktuallaşır. Bu, hazırda azad bazar iqtisadiyyatı təzə formalaşan bir çox ölkələrin, eləcə də Azərbaycanın işgüzar həyatı üçün də aktual məsələlər sırasındadır. Onu da qeyd edək ki, işgüzar etika anlayışı ilə peşə etikası anlayışı arasında ümumi cəhətlər olsa da, bunlar bir-birindən xeyli fərqlənir. İşgüzar etika biznes fəaliyyətinə aiddir və hər bir təşkilat öz işini daha da qabağa aparmaq, cəmiyyətdə nüfuz qazanmaq üçün özünün proqramlarını, metod və yanaşmalarını müəyyənləşdirməyə çalışır. İşçilərin etik davranış səviyyəsinin yüksəldilməsi üçün dünyanın aparıcı şirkətlərinin qəbul etdikləri daha geniş yayılmış yanaşmalar vardır:

· Etik normativlərin hazırlanması. Təşkilatın və ya müəssisənin etik normalarının ümumi dəyərləri və qaydalarına aid sistemlər müəyyənləşdirilir. Məsələn, rüşvət, hədiyyələrin verilməsi və qəbul edilməsi, tutduğun mövqedən süi-istifadə, fırıldaq, maraqların toqquşması zəminində münaqişələr, qanunun pozulması, şirkətin sirlərinin açılması («kommersiya sirri»), informasiyalardan qərəzli məqsədlər üçün istifadə, siyasi təşkilatlara qeyri-qanuni yollarla maliyyə ayrılması və s. məsələlər diqqət mərkəzində saxlanılır və bu addımları atan insanlara qarşı cəza tədbirləri nəzərdə tutulur. Bir qayda olaraq, etik normativlər «Etik davranış Kodeksi» formasında tərtib olunur.

· Etika komitələrinin təşkili. Bu komitələrə, əsasən, şirkətin yüksək vəzifəli rəhbərləri, şirkətdəki iri pay sahibləri və digər maraqlı tərəflər daxil edilirlər. Onlar barışdırıcı hakim rolunu yerinə yetirir, mübahisəli etik məsələlərdə rəsmi mülahizələrlə «şirkətin vicdanı» meyarına əsaslanırlar.

· İctimai yoxlamaların aparılması. Sosial məsuliyyət proqramının həyata keçirilməsinin gedişi, eləcə də biznesin aparılmasının etik tərəfləri, idarəetmə çözümlərinin qəbul edilməsi, əməkdaşlararası münasibətlər və s. ilə bağlı hesabat hazırlanıb, ictimaiyyətə təqdim edilir. Bir qayda olaraq, bu hesabatların hazırlanmasına şirkətdənkənar nüfuzlu araşdırma qurumları cəlb edilir.

· İşçilərə etik davaranış qaydalarının öyrədilməsi. İxtisasartırma və peşə hazırlığı proqramlarında işgüzar etika kursu əsas yerlərdən birini tutur.

· Rəhbərliyin şəxsi nümunəsi. Müasir biznesdə şirkətin (müəssisənin, təşkilatın) rəhbəri mənəvi lider hesab olunur, ümumi ab-havanı o yaradır və etik davranış səviyyəsini müəyyənləşdirir. Yüksək etik davranış nümayiş etdirən müəssisə rəhbərinin şəxsi nümunəsi işçilərdə həmişə yeni etik normalara əməl etməyə stimul yaradır.